**AİB-in İctimai Kommunikasiya Qaydalarının müzakirəsinə başlanılır**

Asiya İnkişaf Bankı (AİB) 2005-ci ildə təsdiq edilmiş **İctimai Kommunikasiya Qaydalarının** (İKQ, yaxud qaydalar) müzakirələrinə başlayır. AİB-ə üzv olan ölkələrdən olan maraqlı tərəflər öz fikirlərini bildirməklə müzakirələr birgə yanaşma ilə həyata keçiriləcəkdir. Qaydaların yenilənmiş variantı 2011-ci ilin birinci rübündə AİB-in Direktorlar Şurasına təqdim ediləcəkdir.

AİB 2010-cu ilin 15 Aprel tarixinədək ictimaiyyəti mövcud İKQ-yə dair rəy verilməsinə dəvət edir. Bu rəylər qaydaların ilk layihəsinin hazırlanmasında nəzərə alınacaq və 2010-cu ilin ikinci rübü ərzində bir neçə üzv ölkələrdə keçiriləcək ictimai məsləhətləşmələr zamanı müzakirə ediləcəkdir. Müzakirələrin aparılması üçün qrafik əlavə olunur.

İKQ xarici əlaqələrin səmərəli təşkili və məlumatlara çıxışın təkmilləşdirilməsini təmin edir. Bu qaydalar məlumatların açıqlanmaması üçün icbari səbəb olmayınca onların ictimai şəkildə açıqlanması prinsipinə əsaslanır. Bu qaydalarda təsirə məruz qalmış insanlara və birgə inkişafa daha ciddi diqqət yetirilir.

2005-ci ildə təsdiq olunandan etibarən Qaydaların icrası ilə bağlı AİB illik qiymətləndirmə hesabatını hazırlamış və dərc etmişdir. Müzakirə prosesi nəticəsində İKQ-də AİB tərəfindən əldə edilmiş təcrübə və inkişaf öz əksini tapacaqdır. Burada həmçinin İKQ-nin səmərəliliyinin artırılmasında öz rəy və təkliflərinin verilməsi üçün kənardan olan maraqlı tərəflərə imkanlar yaradılacaqdır.